Mina RƏŞİD

# BÖYÜKLƏR BİZƏ BAXSIN



Mina Rəşid Ağdamın Qiyaslı kəndində doğulub. 1993-cü ildə doğma kəndi işğal edilib, atası şəhid olub. Ali təhsillidi. 90-cı illərdən mətbutda çıxış edir. "Qarabağa aparan yol" və Mədəniyyət Nazirliyinin təsis etdiyi "Yaddaş" qəzetində şöbə redaktoru vəzifəsində çalışıb. Yazıları xüsusilə "525-ci qəzet"də mütəmadi çap edilib. "Könlümün sarı simi" və "Baxmaqla görmək ayrıdır" adlı şeir və publisistikadan ibarət kitabların müəllifidir. YB və JB-nin üzvü, Prezident təqaüdçüsüdür. (2013). Ailəlidir, iki övladı var.

Mina Rəşid son illərdə demək olar ki, ancaq uşaqlar üçün yazır. Uşaq şeirləri "Axar.az" saytında yayımlanıb, "Ulduz", "Göyərçin", "Günəş" və "Göyqurşağı" jurnallarında şeir və hekayələri çap edilib. " Böyüklər bizə baxsın" adlı şeirlər kitabı onun uşaqlarla ilk görüşüdür.

*Mina RƏŞİD*

# BÖYÜKLƏR BİZƏ BAXSIN

**Bakı - 2017**

***Mina Rəşid***
***“Böyüklər bizə baxsın”***

*Redaktor və ön sözün müəllifi:*
***Sevinc Nuruqızı***

*Tərtibatçı:*
***Elşən Şıxlı***

Kitab müəllifin oxucularla üçüncü görüşüdür. Onun “Könlümün sarı simi” və “Baxmaqla görmək ayrıdır” adlı kitablarından fərqli olaraq bu nəşr uşaqlar üçün nəzərdə tutulub. Bu şeirlərdə uşaq dünyasının şirinliyi, balalarımızın Vətənə, Yurda, doğma Qarabağa incə məhəbbəti tərənnüm edilib.

“Avropa” nəşriyyatı

# *UŞAQ ŞEİRİNDƏ YENİ NƏFƏS*

Mən Mina Rəşiddə bu nəfəsi illər öncə duymuşdum. Şeirlərindəki sözlər zərif kəpənəklər kimi uçuşanda, kədər dolu yazılarından belə həzin sevgi səpələnəndə... Çəməni yamyaşıl, şehi parıltılı, qarı ağappaq şeirlərini. Rəngləri təbii, hisləri səmimi, çırpıntıları içdən şeirlərini hər dəfə oxuyanda... Mina Rəşid səmimiyyəti, saflığı, bəyazlığı arzulamışdı uşaqlarımıza.

Və günlərin bir günü o poetik aləmdən bir bənd süzüldü uşaq şeirinə:

*Ağappaq qar içində*
*Atılıb-düşdü Qumru.*
*Qartopular düzəltdi*
*Balaca, yumru-yumru...*

Sonra bir başqası:

*Ağaclar cılpaq, arıq*
*Çöllər elə boz idi.*
*Qar yağdı obamıza*
*Ağaclar don geyindi.*

Daha sonra biri:

*Duşünürdun Ay nədən*
*Arıq olur çöp kimi.*
*Bir də gördüm kökəlib*
*Dönüb olub top kimi.*

Sevindim... Nə yaxşı ki, Mina Rəşid zərifliyindən uşaq şeirinə də pay düşdü. İncə, həzin, səmimi misralar... Uşağın özü kimi saf, bəmbəyaz, ilıq və təravətli şeirlər.

Bu kitab artıq ədəbi aləmdə tanınmış imza olan Mina Rəşidin uşaq dünyasına ilk addımıdır... Addımların çiçəklənsin, Mina Rəşid. Uğurlu yol...

***Sevinc Nuruqızı***

## *QUMRU*

Ağappaq qar içində
Atılıb-düşdü Qumru.
Qartopular düzəltdi
Balaca, yumru-yumru.

Sonra qardaşı ilə
Qardan adam düzəltdi.
Buz kimi əllərini
Anasından gizlətdi.

## *ÇİÇƏYİN ÇƏTİRİ*

Yağış yağır səhərdən
Hələ külək də əsir.
Əlindəki çətirlə
Çiçək yaman tələsir.

Məktəb harada qaldı?
Buludlara uçur o.
Gedə bilmir, çətirin
Arxasınca qaçır o.

# *AYAQQABI ADASI*

Burda çoxlu çeşid var
Götürürdüm, baxırdım.
Zəhraya mağazadan
Ayaqqabı alırdım.

Zəhra dedi: “Ay aman,
Biz gəlmişik uzaya! ”
“Ayaqqabı adası”
Söylədi mağazaya.

# ÜMİDİN BİR YAŞI VAR

Ümidin bir yaşı var
Evdə nə var dağıdır.
Əlindən bir şey alsan
Tez qışqırıb-bağırır.

Ayıcığın qolundan
Tutub yerlə sürüyür.
Qaçır o baş, bu başa
Tappır-tuppur yüyürür.

Atasını yedirdir
"Can", - deyir anasına.
Daha yorulmadınmı
Gəl, xalanın qucuna.

# *GÜNƏŞ NƏ AĞILLIDI*

Günel gedir məktəbə
Günəş üzünə gülür.
Deyir, yoxsa günəş də
Ana, məktəbə gəlir.

Günəş nə ağıllıdı
Göydə ocaq qalayır.
Uzadıb əllərini
O məni qucaqlayır.

# *AY DA GƏLİR DALIMCA*

Mavi yorğan içində
Başın qoyub balınca.
Mən getdikcə görürəm
Ay da gəlir dalımca.

Duşünürdun Ay nədən
Arıq olur çöp kimi.
Bir də gördüm kökəlib
Dönüb olub top kimi.

## *MƏNİM ADIM İRADƏ*

*Sevinc Nuruqızının nəvəsinə*

Mənim adım İradə
Çox ağıllı qızam mən.
Nənəmin ilk nəvəsi
Ətirli bir yazam mən.

Bapbalaca olsam da
Anam mənə dərs deyir.
Mən "A" hərfi deyəndə
Evdə hamı sevinir.

Atamın bir dənəsi
Parlaq günəşiyəm mən.
Babam gəlib görəcək
Daha böyümüşəm mən.

## *MÖTƏRİZƏ*

Mötərizə yazmağı
Öyrənib bizim Ayna.
Mötərizə içində
Qaldı armud və alma.

Anasının üzünü
Alıb kiçik ovcuna.
Mötərizəyə saldım
Deyir, səni, ay ana!

# *SƏMA VƏ RƏŞİD*

Səma məktəbə gedir,
Rəşid kiçikdi hələ.
Biri dərs hazırlayır,
Biri oynayır elə.

Səma bir də baxır ki,
Nə var yerə tökülüb.
Rəsm dəftəri itib,
Karandaşlar yox olub.

"Bu Rəşidin işidir"-
Bacısı tez anlayır.
Qardaşına hirslənir,
Onu çoxlu danlayır.

Səma sonra görür ki,
Bu çıxış yolu deyil.
Balaca müəllimə
Qardaşına dərs deyir.

# *HÖRÜMÇƏK ADAM*

Hörümçəyə bənzəyir
Sakitcə qalxır, durur.
Hörümçək adam kimi
Həmzə evdə tor qurur.

O qədər seyr edib ki,
O, “Hörümçək adam”ı.
Evdə oyun çıxarır
Dəyişiblər adını.

“Dünyanı qurtarıram
Hörümçək adam kimi”-
Deyir, evdə qoy hər kəs
Qəhrəman bilsin məni.

# *ŞAM VƏ NAĞIL*

İşıq sönəndə
Şam yandırırıq.
Şam işığında
Biz çalışırıq.

Anam oxuyur
Şam rəqs eləyir.
Mənimtək şam da
Nağıl dinləyir.

# TƏNDİR ÇÖRƏYİ

Xəmir yoğurdu,
Kündələr tutdu.
Nənəm onları
Təndirə yapdı.

Çörəkdən əvvəl
Qoxusu gəldi.
Sonra çörəklər
Bir-bir düzüldü.

Təndir çörəyi
Nə ləzzətlidir.
Nənəmin əli
Bərəkətlidir.

# *YAĞAN QAR OLMAZ HƏDƏR*

Günəşi görən kimi
Qar geriyə çəkildi.
Damlarda suya donüb
Şəlalətək töküldü.

Qartopular əridi,
Qar adamı büzüşdü.
Üst-başım su içində
Topum palçığa düşdü.

Qarın ömrü nə qısa
Oynadıq , doyduq yetər.
Nənəm deyir: "Qış gedər
Yağan qar olmaz hədər."

## *MƏKTUB*

Anasına həmişə
Minayə məktub yazır.
-Ana, mənə nağıl de,
Ana, məni yatızdır.

Qardaşından küsəndə
Sözlərindən od saçır.
Atasına söz demir
Məktubu verib qaçır.

Məktublarla unudur
Ağlayıb-sızlamağı.
Atasına xoş gəlir
Onun məktub yazmağı.

# *SƏNƏMİN SEVİNCİ*

"Mağazaya gedirəm,
Siyahı tutmuşam mən"
Alacağı nə varsa
Şəklini çəkdi Sənəm.

İstədi ki, satıcı
Bu şəkilləri görsün.
Şəkillərə baxınca
Ona "Afərin!" desin.

"Nə gözəl şəkillərdi", -
Satıcı oğlan dedi.
Aldığı şirnidən çox
Sənəm buna sevindi.

## *QAR ADAM*

Şaxtalı qış olsa da
Dostlar çıxıb gəzməyə.
Gəl, qartopu oynayaq
Elcan deyir Həmzəyə.

Xırdaca toplar kimi
Qar da yağır durmadan.
Uşaqlar ağ dənizdə
Dönüb olur qar adam.

## *AĞACLAR DON GEYİNDİ*

Ağaclar cılpaq, arıq
Çöllər elə boz idi.
Qar yağdı obamıza
Ağaclar don geyindi.

## *YARPAQLAR RƏQS ELƏYİR*

Bu gözəl yaz günündə
Bacım şeir söyləyir.
Külək nəğməyə dönür
Yarpaqlar rəqs eləyir.

# *AY MƏNİ GÖZLƏYİR*

Həyətə çıxan kimi
Tez qışqırdı Aybəniz.
- Bax, Ay məni gözləyir
Getmir heç yerə mənsiz.

# *GÖYQURŞAĞI*

Göyqurşağı kimidi
Bizim balaca Nərmin.
Gör bir neçə rəngi var
Əynindəki köynəyin.

## *XURMA*

Ağaclarda sapsarı
Balaca toplar kimi.
O hansı meyvədir ki,
Özünə çəkir məni?

Heç xurma yeməmisən?
Xəyal dedi Xasaya.
Öz babamın bağıdı
Gəl, dırmaşaq hasara.

# *DİŞLƏR GƏLİB EVİNƏ*

Dünən dişi laxladı
Yerə düşdü Gülgəzin.
Ağzında diş qalmadı
Nə gülməlidi qızım.

Daha kökü, almanı
O dişləyə bilmədi.
Utandı, əvvəlkitək
Çox danışıb-gülmədi.

Bir gün güzgüyə baxdı
O, sevinə-sevinə.
Dedi, ana, buna bax,
Dişlər gəlib evinə.

# *KÜLƏK NƏĞMƏ SÖYLƏYİR*

Anam yuyub paltarı
Həyətimizə sərib.
Köynəklər rəqs eləyir
Havada qərib-qərib.

Yəqin külək bilir ki,
Könül onu çox sevir.
Buna görə o bizə
Gəlib nəğmə söyləyir.

## *AĞILLI RÖYA*

Çaya "Ç" hərfi deyir
"S" hərfi deyir suya.
Hərfləri öyrənir
Bizim ağıllı Röya.

Xörəyə "X" söyləyir
"A" deyir o, almaya.
Anası deyir təki
Qiymətin "İ" olmaya.

# *QORXUR BURDA AYICIQ*

Birdən külək başladı
İşıq söndü bir yandan.
Üşüməyə başladı
Arıq, balaca Fidan.

Dedi, ana, mənimlə
Qorxur burda ayıcıq.
Evimiz də üşüyür
İşıq nə vaxt yanacaq?

## *ANA DİLİM*

Ana dilim bal kimi
Danışmaqdan doymuram.
Mən onu neçə dilin
İçində qoruyuram.

Çoxlu nağıl söyləyib
Nənəm bu dildə mənə.
Əlifbanı öyrəndim
Mən sevinə-sevinə.

Çox sevirəm yurdumun
Bayrağını,  himnini.
Mən sevirəm anamı
Həm də ana dilimi.

# ŞUŞA

Min bir dərdin dərmanı
Şirin, buz bulaqları.
Şuşa dağın başında
Dolanbacdı yolları.

“Qarabağ şikəstəsi”
Xarı bülbülün eli.
Natəvanın qələmi
Vaqifin şirin dili.

Qalıb düşmən əlində
Neyləsin əsirliyi?!
Başına bəla olub
Şuşamın gözəlliyi.

Tez gedək Qarabağa
Baba, nənə, tələsin!
Şuşasız həsrət sizi
Qoy daha öldürməsin.

## NOVRUZ

Bayramların içində
Biri var, o ayrıdır.
Biz onu çox sevirik
O Novruz bayramıdır.

Bəzəkli yumurtalar
Döyüşə hazır olar.
Tonqalların üstündən
Ən qoçaqlar atlanar.

Stolun üstündəki
Səmənidir ən uca.
Şəkərbura, paxlava,
Şirni, noğul bolluca.

Qızlar qapı yanında
Qulaqlarını tutar.
Qonşular qoz-fındığı
Papaqlara doldurar.

...Nənəm Qarabağdakı
Novruzundan danışar.
Susar bütün uşaqlar
Qəlbimizdə bir həsrət
Tonqal kimi alışar...

## *XOCALI*

Xocalı qan ağlayır,
Ürəyimi dağlayır.
Qərənfil də bizimtək.
Dərd çəkir, yas saxlayır.

Amma biz ağlamaqla
Bu dərd sağalan deyil.
Xocalını almasaq
Bir də doğulan deyil.

# BÖYÜKLƏR BIZƏ BAXSIN

Axı nəyə gərəkdi
Bu tanklar, bu ordular?
Bizimtək uşaqları
Xocalıda qırdılar!

A dünya uşaqları
Sarı, qara, ağbəniz...
Sülh nəğməsi oxuyaq
Aya çatsın səsimiz!

Böyüklər bizə baxsın
Güldən çəkək yolları!
Əl-ələ verib gedək
Susduraq silahları!

# *YELLƏNCƏK*

Bilirəm, yelləncəyi
Çox sevirsən, ay Nigar.
Nənəmgildə mənim də
Qəşəng yelləncəyim var.

Gedən kimi hoppanıb
Otururam içində.
Quştək göyə qalxıram
Uçuram var gücümlə.

Yelləncək arzu kimi
Qəlbimə qanad taxır.
O məni yerdən alıb
Dağın başına çıxır.

# *YOLU TUTUB MAŞINLAR*

*Məktəbin qapısı ağzında
yazılan şeir*

O dəmirdi, mən uşaq
Dəmirin gözü görmür.
Yolu tutub maşınlar
Qaytarıb bizə vermir.

Tıxacda boğuluruq,
Bir küncdə sıxılırıq.
Məktəbə çatmaq üçün
Biz yaman darıxırıq.

Bu gün maşın vurdu, bax!
Əmim qızı Laləni...
Anam yaman ağladı
Qucaqladı tez məni.

- Maşın sürən adamdı
Yoxsa robot əmidi?
Anam çaşdı sualdan
Baxdı-baxdı, dinmədi...

## *NURAY*

Gah gül çəkir, gah ağac,
Gah günəş, gah da ki, ay.
Şəkil çəkməyi yaman
Çox sevir bizim Nuray.

Divarda yer qalmayıb
Payızdı, qışdı, yazdı...
Nə vaxt baxsan, əlində
Karandaşı hazırdı.

Bax, yenə nəsə çəkir
Bu ki, bir dan ulduzu!
Yəqin rəssam olacaq
Mənim balaca quzum.

# *MƏN ƏSGƏR OLACAĞAM*

Mən həkim olacağam
Sağlam olsun uşaqlar.
Mən də müəllim olum
Savadlı olsun onlar.

Mən aşpaz olacağam
Acqarına iş olmaz.
Mən dərzi olacağam
Donsuz, köynəksiz olmaz.

Mən alim olacağam.
Yeniliklər edəcəm.
Mən səyahətçi olub
Yer üzünü gəzəcəm.

Mən astronavt olub
Göy üzünə uçacam.
Mən də bəstəkar olub
Şən nəğmələr qoşacam.

Mən şair olacağam
Sözlərim olsun ordu.
Mən əsgər olacağam
Qoruyacam bu yurdu.

Mən poliqlot olacam
Səsim göyə ucalsın.
Mən rəssam olacağam
Azərbaycan adında
Günəşli Vətənimə
Bütün dünya mat qalsın!

# CIĞAL ÖSKÜRƏK

Dərslərimi öyrəndim
Bilmirəm ki, nə edim.
Of, bu öskürək məni
Qoymur məktəbə gedim.

Anam bəhməz içirir,
Limon verir, sağalım.
Əlində qalmışam mən
Bu öskürək cığalın.

Aha, tapdım deyəsən,
Dilini öskürəyin.
Dayanmadan çalışdım.
Tez keçdi xəstəliyim.

# MƏNİM ANAM

Yatar hamıdan sonra
Hamıdan tez oyanar.
Bütün günü o mənim
Qulluğumda dayanar.

Xörəyimi bişirər
Saçlarımı darayar.
Qardaşımla o məni
Məktəbə hazırlayar.

Səhər tezdən məktəbə
Bizi aparan odur.
Sonra evə gətirən
Bizdən nigaran odur.

Deyirəm, qoy, anacan
Kömək edim mən sənə.
Anam gülümsəyərək
Sevinir, baxıb mənə.

# *AĞACLAR DA KÖVRƏLİR*

Hansı meyvəni görsə
Yenə başlayır sözə:
"Bizim həyətdə vardı..."
Anam qarabağlıdı...

...Gözləməkdən yorulub
Tükənir səbirləri
Ağaclar da kövrəlir,
Dağlar, bağlar, bulaqlar
Anam deyir, o vaxtdan
Yolumuzu gözləyir...

# *BAYRAĞIM*

Səni enməyə qoymaz
Ana yurdum - dayağım.
Harda qalib oluruq
Dalğalanan bayrağım!

Sənə zirvə yaraşır
İgid elimdən güc al!
Azərbaycan bayrağı
Başım üstündə ucal!

Səni qorumalıyıq
Doğma adımız kimi.
Səni unutmarıq biz
Vətən andımız kimi!

## *AZƏRBAYCAN ƏSGƏRİ*

Uşaqlar bir ağızdan
Himn oxuyurlar, bir bax.
Əldə bayraq, dildə can
Hamı deyir: "Qarabağ!"

Qurtulacaq düşməndən
Can yurdum - Qarabağım.
Ürəyimin başında
Dalğalanır bayrağım!

Hər kəs bir Vətən olub
Əsgər kimi dayanıb.
Şəhid babamın ruhu
İndi nura boyanıb.

Bütün dünya eşitsin:
Bu yurd türkün məskəni!
Haqq uğrunda savaşır
Azərbaycan əsgəri!

# CƏNGİ HAVASINDAYAM

Bəsdir daha gözlədik,
Qalx ayağa, soydaşım!
Qoy qalmasın düşməndə
Tək bircə qara daşım!

Üçrəngli bayrağımda
Qanımın al rəngi var.
Himnimizi dinləyib
Nərə çəkər oğullar!

Cəngi havasındayam
Türkün ruhu oyanar.
Bu qüdrətli ordumla
Qarşımda nə dayanar?!

# *SƏN MƏNİM VƏTƏNİMSƏN*

Sən babamın, nənəmin,
Anamın Vətənisən.
Orda doğulmasam da
Mənim  də Vətənimsən.

Nənəm səndən danışır
“Can, Qarabağ...”,- söyləyir.
Hərdən də, köks otürür,
Adına gülümsəyir...

Deyir: - Düşmən əlində,
Qaldı evim-eşiyim...
Deyirəm: - Qoy böyüyüm,
Mən çəkəcəm, nənəcan
Qarabağın keşiyin!

# *AĞLAMA, QUMRU XALA*

*Şəhid anasına*

Bir də Sizə gəlimmi?
Ağlama, Qumru xala.
De, dərdindən ölümmü?
Ağlama, Qumru xala.

Hara gedim gözündən?
Əksin qalıb üzümdə
Güc tapmıram özümdə
Ağlama, Qumru xala.

Səni belə bilməzdi,
Boş gülləyə gəlməzdi,
Şəhidlər ki, ölməzdi
Ağlama, Qumru xala.

# *YAZ GƏLDİ YAZIN GƏLMƏDİ*

*Yataqxana binasından boylanan anaya*

Nə həsrətdi gözlərində
Baharın bu gülən çağı?
Yoxsa yadına salmısan
Yurdunda qərib ocağı?

Mənə də söylə dərdini
Qurban olum, gəl yaxına.
Ana, elə qəmli baxıb
Ürəyimə dərd toxuma...

Yol-izini göy ot alıb
Bura üstü buz küçədi.
Mən belə dərd çəkən yerdə
Gör sənin halın necədi?

Ahın dağlara, daşlara
Yenə nə yaman dolmusan...
Yaz gəldi, yazın gəlmədi
Göydən asılı qalmısan...

## *MƏKTƏB MƏNSİZ DARIXIR*

Xəstəlikdən iki gün
Süsən dərsə getmədi.
Məktəb üçün darıxdı
Tez sağalmaq istədi.

"Məktəb mənsiz darıxır",
Söylədi anasına.
Məktəbin şəklin çəkib
Tez qoydu çantasına.

# *BALERİNA KARANDAŞ*

Karandaşım incədi
Balerinalar kimi.
Mən ona bir don biçdim
Ağappaq güllər kimi.

İstədim karandaşım
Onun kimi oynasın.
Amma o, durub baxdı
Sevinməyə qoymadı.

"Hərənin öz işi var",-
Dedi bacım, qardaşım.
Balerina olmağı
İstəmir karandaşım.

# *KİM DƏRSİNİ BİLMİRSƏ*

Bacını tərifləsən
Qardaş küsür o anda.
Qardaşı tərifləsən
Bacı inciyir onda.

Mən sizi çox sevirəm -
Axırda ana deyir.
Kim dərsini bilmirsə
Ana ondan inciyir.

## *QARA ÜZÜM*

Bu qaraca qıza bax,
Qapqara üzüm yeyir.
- Üzümlərin qəşəngi
Qara üzümdür,- deyir.

# *PAYIZI ÇOX SEVİRƏM*

Yağışla nəğmə deyirəm,
Küləklə rəqs edirəm.
Bahartək payızı da
Dostlar, mən çox sevirəm.

Hər səhər gülür üzümə
Sabah gülüm-gülşənim.
Nar çiçəyi meyvə olub
Dənələri şipşirin.

Ətri gör necə xoşdu
Sapsarı heyvaya bax.
Payız bar-bəhər fəslidi
Ətir saçır bağça-bağ.

# *MƏN MƏKTƏBƏ HAZIRAM*

Bu yay anam müəllim
Mən də şagird olmuşam.
Dərsimi bilməyəndə
Qızarıb ağlamışam.

Sonra da çox çalışıb
“5” almışam anamdan.
Mükafatım da olub
Bu planşet atamdan.

Hərfləri öyrəndim
Oxuyuram, yazıram.
Altı yaşım var daha
Mən məktəbə hazıram.

# ÜMİD BALAM

O mənim Ümid balam,
Gözlərimdə bir inci.
Atasının ümidi,
Anasının sevinci.

On iki ildən sonra
Nurtək gəldi dünyaya.
Bütün aləm sevindi
Sevindi gün də, ay da.

Səni verənə şükür,
Ay nənənin noğulu.
Böyü, Yurda gərəksən,
Babası igid oğlum!

# PAYIZ "GÖYƏRÇİN"İ

*"GÖYƏRÇİN" jurnalında ilk dəfə yazılarımı gördüyüm gün*

Qəlbimdəki sevincdən,
Könlüm quştək çırpınır.
Bu gün uçmağa təkcə
Qanadlarım çatışmır.

Əllərimdə "Göyərçin",
Gözlərimdə gülüş var.
Elə bir andayam ki,
Rəqs eləyir damcılar.

Yağış yağır, havadan
Gəlir heyva qoxusu.
Bu payız "Göyərçin"i
Gör necədi, oxucu?

# *HİMNİMİZİN SƏSİYLƏ*

Himnimizin səsiylə
Nədən dolur gözlərim?
Qəlbim elə böyüyür
Ordu olur sözlərim.

Himnimizin səsiylə
Dalğalanır bayrağım.
Könlümə haray salır,
Çağırır Qarabağım.

Himnimizin səsində
Gör bir nələr yaşadım.
Qələbə bayrağını
Mən çiynimdə daşıdım.

Bayrağıma "can" deyir
Göytürkümün nəfəsi.
Himnimizin səsiylə
Ucalır haqqın səsi.

## *QARANQUŞ BİZƏ GƏLDİ*

*"Qaranquş" jurnalına*

Dimdiyində bir məktub
Qaranquş bizə gəldi.
Məktubu açıb gördüm
Məktub ilmə-ilmədi.

Hər ilmədə bir naxış,
Hər naxışda bir məna.
Şeir, nağıl, hekayə
Gəl, söyləyim mən sənə.

Sənin üçün yığmışam
Söz boxçam bax, doludu.
Bu yol ulu babamız
Nizaminin yoludu.

Yüküm ağır olsa da,
Günəşdi yol yoldaşım.
Gəl, səninlə dost olaq
Ol, yeganə sirdaşım.

Bircə artıq sözüm yox,
Məndən zərər görməzsən.
Çox mətləbi öyrənib,
Çox sirləri çözərsən.

Məndən öyrəndiklərin
Kömək olar dərsinə.
Dünyamızı gəzərsən
Düşüb mənim izimə.

Hələ bu harasıdı,
Bir gün qalib olarsan.
"Qaranquş"un evinə
Qonaq kimi gələrsən.

Bütün uşaqlar görüb
Tanıyar, sevər səni.
Hər kəs istər "Qaranquş"
Göyə uçursun onu.

Qaranquşam, hər işdən
Xəbərim var, oxusan.
İstərəm hər gələndə
Qarşıma sən çıxasan.

# *KÜLƏK DƏ BİR QONAQDI*

Qapı elə döyüldü
Gələn atamdı, sandım
Deyən, külək darıxır,
Bizə gəlmək istəyir...
Külək də bir qonaqdı
Qoy gedim qarşılayım...

# MÜNDƏRİCAT

*UŞAQ ŞEİRİNDƏ YENİ NƏFƏS*........................................ *3*
*QUMRU*........................................................................ *5*
*ÇİÇƏYİN ÇƏTİRİ*.......................................................... *6*
*AYAQQABI ADASI*......................................................... *7*
*ÜMİDİN BİR YAŞI VAR*.................................................. *8*
*GÜNƏŞ NƏ AĞILLIDI*..................................................... *9*
*AY DA GƏLİR DALIMCA*................................................ *10*
*MƏNİM ADIM İRADƏ*................................................... *11*
*MÖTƏRİZƏ*................................................................. *12*
*SƏMA VƏ RƏŞİD*.......................................................... *13*
*HÖRÜMÇƏK ADAM*....................................................... *14*
*ŞAM VƏ NAĞIL*............................................................ *15*
*TƏNDİR ÇÖRƏYİ*.......................................................... *16*
*YAĞAN QAR OLMAZ HƏDƏR*......................................... *17*
*MƏKTUB*.................................................................... *18*
*SƏNƏMİN SEVİNCİ*...................................................... *19*
*QAR ADAM*................................................................. *20*
*AĞACLAR DON GEYİNDİ*............................................... *21*
*YARPAQLAR RƏQS ELƏYİR*........................................... *22*
*AY MƏNİ GÖZLƏYİR*.................................................... *23*

*GÖYQURŞAĞI* ........................................................ *24*
*XURMA* ........................................................ *25*
*DİŞLƏR GƏLİB EVİNƏ* ........................................................ *26*
*KÜLƏK NƏĞMƏ SÖYLƏYİR* ........................................................ *27*
*AĞILLI RÖYA* ........................................................ *28*
*QORXUR BURDA AYICIQ* ........................................................ *29*
*ANA DİLİM* ........................................................ *30*
*ŞUŞA* ........................................................ *31*
*NOVRUZ* ........................................................ *32*
*XOCALI* ........................................................ *34*
*BÖYÜKLƏR BIZƏ BAXSIN* ........................................................ *35*
*YELLƏNCƏK* ........................................................ *36*
*YOLU TUTUB MAŞINLAR* ........................................................ *37*
*NURAY* ........................................................ *39*
*MƏN ƏSGƏR OLACAĞAM* ........................................................ *40*
*CIĞAL ÖSKÜRƏK* ........................................................ *42*
*MƏNİM ANAM* ........................................................ *43*
*AĞACLAR DA KÖVRƏLİR* ........................................................ *44*
*BAYRAĞIM* ........................................................ *45*
*AZƏRBAYCAN ƏSGƏRİ* ........................................................ *46*

*CƏNGİ HAVASINDAYAM........................................... 47*
*SƏN MƏNİM VƏTƏNİMSƏN....................................... 48*
*AĞLAMA, QUMRU XALA........................................... 49*
*YAZ GƏLDİ YAZIN GƏLMƏDİ.................................... 50*
*MƏKTƏB MƏNSİZ DARIXIR...................................... 52*
*BALERİNA KARANDAŞ.............................................. 53*
*KİM DƏRSİNİ BİLMİRSƏ.......................................... 54*
*QARA ÜZÜM............................................................. 55*
*PAYIZI ÇOX SEVİRƏM.............................................. 56*
*MƏN MƏKTƏBƏ HAZIRAM....................................... 57*
*ÜMİD BALAM........................................................... 58*
*PAYIZ "GÖYƏRÇİN"İ............................................... 59*
*HİMNİMİZİN SƏSİYLƏ............................................ 60*
*QARANQUŞ BİZƏ GƏLDİ......................................... 61*
*KÜLƏK DƏ BİR QONAQDI....................................... 63*

*Çapa imzalanmış 12.01.2017-ci il.*
*Kağız formatı 60x84 1/16.*
*Sayı 500, qiyməti sərbəst.*

"Avropa" nəşriyyatı


Böyüklər bizə baxsın
Güldən çəkək yolları!
Əl-ələ verib gedək
Susduraq silahları!